BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2009*

# BEYNƏLXALQ MÜQAVİLƏ NORMALARI VƏ CİNAYƏT-PROSESSUAL QANUNVERİCİLİYİ

**Ə.C.SEYİDOV**
***Bakı Dövlət Universiteti***
***seidovac@mail.ru***

*Məqalədə beynəlxalq müqavilə normaları və cinayət-prosessual qanunvericiliyinin qarşılıqlı nisbət məsələləri hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi və dövlətdaxili qanunvericilik əsasında geniş təhlil edilir. Aparılan tədqiqatlar nəticəsində beynəlxalq müqavilə normalarının cinayət-prosessual qanunvericiliyi üçün əhəmiyyəti belə qiymətləndirilir: dövlətdaxili sahəvi qanunvericiliyin təkmilləşdirilməsi; AR Konstitusiyasının 71. VI maddəsinə əsasən beynəlxalq müqavilənin özündə nəzərdə tutulduğu halda cinayət-prosessual münasibətlərini birbaşa tənzimləməsi və s.*

Hüquq elminin mühüm problemlərindən biri də beynəlxalq hüquq normalarının milli qanunvericiliyə implementasiyasıdır. Bu sahədə müəyyən tədqiqatlar aparılsa da, konkret sahələr istiqamətində xüsusi yanaşmaların təhlil edilməsi müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsində və beynəlxalq standartlar əsasında yenidən qurulmasında mühüm əhəmiyyət kəsb edir. İ.İ.Lukaşuk qeyd edir ki, beynəlxalq hüquq normalarının həyata keçirilməsi bir qayda olaraq onların qəbulundan daha mürəkkəb və məsuliyyətlidir (8, 116). «Tərəfdar çıxılmış beynəlxalq müqavilələrin qanunvericilik sisteminin tərkib hissəsidir» müddəasına əsasən cinayət-prosessual qanunvericiliyinə məlum olmayan və beynəlxalq müqavilə ilə nəzərdə tutulan qaydalar yeni qanunvericilik aktı ilə dövlətdaxili qanunvericilik sisteminə daxil edilməlidir. Məsələyə ümumi mənada yanaşan Ə.İ.Əliyev bu istiqamətdə milli qanunvericiliyin xüsusi rolunu qeyd edir və normanı səmərəlilik nöqteyi-nəzərindən izah edir (1, 242). L.H.Hüseynov qeyd edir ki, beynəlxalq hüquq müddəalarının implementasiyası, yəni həyata keçirilməsi, prinsip etibarilə, yalnız milli qanunvericiliyin və milli məhkəmənin iştirakı ilə mümkündür. Bu tələbin yerinə yetirilməsinin forma və vasitələrinin seçilməsi hər bir dövlətin öz konstitusiya qanunvericiliyində və praktikasında müəyyən olunur (2, 56; 3, 35).

Azərbaycan Respublikasının (AR) CPM-in 2.3 maddəsində qeyd edilir ki, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Məcəllədən fərqli digər qaydalar müəyyən olunduqda, beynəlxalq müqavilənin qaydaları tətbiq edilir.

Təəssüfedici haldır ki, qanunverici, beynəlxalq müqavilə normasının tətbiqini kolliziya halı üçün mənbə kimi ifadə edir. İmplementasiya edilmiş beynəlxalq müqavilə norması qanunvericilik sisteminin tərkib hissəsi kimi elan edildiyi üçün ona münasibət də dəyişilməlidir.

AR ərazisində cinayət işləri üzrə icraat cinayətin törədildiyi yerdən asılı olmayaraq AR CPM-nə və cinayət mühakimə icraatına aid digər qanunvericilik aktlarına uyğun aparılmalıdır və cinayət prosesi sferasında beynəlxalq müqavilələr qanun-

vericiliyin mənbəsi olduqdan sonra (m. 2.1.4) tənzimetmə funksiyasını həyata keçirir. Bu zaman tanınmış, tərəfdar çıxılmış beynəlxalq müqavilə birbaşa tətbiq edilə bilər.

Beynəlxalq müqavilənin birbaşa tətbiqi üçün onun qanunvericilik sisteminə daxil edilməsini təmin edən hüquqi akt məhkəmə, digər hüquqtətbiqedən orqan üçün əsas olacaqdır. Belə bir qayda hüquqtətbiqetmə prosesində müvafiq qurumların, məhz konkret qanunvericilik sisteminə daxil olan aktlara əsaslanmasından irəli gəlir. Qeyd edilən pozitiv model AR-in Məhkəmələr və hakimlər haqqında 1997-ci il Qanununda da öz ifadəsini tapıb. Qanunun 4-cü maddəsinin 3-cü hissəsində qeyd edilir ki, məhkəmələr işlərə baxarkən AR-in Konstitusiyasını, qanunlarını, digər qanunvericilik aktlarını, həmçinin AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tuturlar.

Lakin qanunvericilikdə beynəlxalq müqavilə qaydasına birbaşa istinad həmişə müvafiq qaydada həll edilmir. Məsələn, AR-in Cinayət Məcəlləsində beynəlxalq hüquq normalarına, o cümlədən beynəlxalq müqavilələrə istinad edilsə də, bu özünəməxsus xüsusiyyət kəsb edir. Cinayət Məcəlləsində beynəlxalq müqavilələrə müxtəlif maddələrdə, eləcə də 11.5, 12.2, 12.3, 12.4, 13.2, 13.4 və d. istinad edilsə də, Məcəllənin 1-ci maddəsində beynəlxalq müqavilə normaları ifadə edilməyib. Həmin maddədə qeyd edilir ki, cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar ***yalnız*** (kurs. müəllifindir – Ə.S.) bu Məcəlləyə daxil olduqdan sonra tətbiq edilə bilər (m. 1.3). Hərgah 1.2 maddəsində təsbit edilən «hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına və prinsiplərinə» istinad dolayısı ilə beynəlxalq müqavilə qaydasında ifadə edilən ümumtanınmış normaları da nəzərdə tuta bilər. Lakin hüquq tətbiqedənin hamılıqla tanınan beynəlxalq hüquq normalarına «qeyri-müəyyən» münasibəti istisna edilməməlidir. Digər tərəfdən, Cinayət Məcəlləsinin qeyd etdiyimiz 1.3 maddəsində beynəlxalq müqavilə normalarının birbaşa tətbiqini istisna etməsi, həmçinin beynəlxalq müqavilə normalarının legitimasiyasını nəzərdə tutması Konstitusiyanın 148.II maddəsində təsbit edilən beynəlxalq müqavilə normalarının milli hüquqi implementasiyasının inkorporasiya üsuluna da uyğun deyil. Eləcə də, AR CPM-in 2-ci maddəsində «Cinayət-prosessual qanunvericiliyinin mənbələri kateqoriyasında «Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən» ibarət olması ilə də uzlaşmır. AR-də məhkəmə təcrübəsinin, o cümlədən Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququnun öyrənilməsi və tətbiqi də qeyd edilən hala münasibətdə qeyri-müəyyən vəziyyətdə qalır.

«İstinadedici hüquqyaratma prosesində» beynəlxalq müqavilə normaları haqqında danışarkən Y.B.Truntsevski və V.V.Qrib qeyd edirlər ki, milli hüquqda «istinadedici hüquqyaratma» zamanı beynəlxalq müqavilə daxili cinayət hüququnun mənbəyi kimi tanınmalıdır. Bu halda da unifikasiyaedici mənbə kimi blanket formulanı və ya resepsiya edilmiş normaları təsbit edən milli qanun və davranış qaydasını ifadə edən beynəlxalq müqavilə tanınmalıdır. Hər bir göstərilən mənbəni unifikasiya edilmiş normanın və müvafiq olaraq cinayət hüququnun mənbəyi kimi adlandırmaq təklif edilir (12, 2).

Cinayət–prosessual münasibətlərinin tənzimlənməsi zamanı beynəlxalq müqavilə normalarına istinad edilməsi, qeyd etdiyimiz kimi, daha ciddi formada CPM üçün xarakterikdir (m. 2.1.4). AR cinayət-prosessual qanunvericiliyinin mənbələrinin digər mənbələrlə yanaşı, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarət olması cinayət prosesini həyata keçirən şəxslərin davranış qaydasının beynəlxalq standartlara uyğunlaşdırılmasında, prosesin humanistləşdirilməsində xüsusi əhəmiyyət kəsb etməlidir.

AR CPM-in 2.3 maddəsində ifadə edilən «Azərbaycan Respublikasının tərəfdar

çıxdığı beynəlxalq müqavilələrdə bu Məcəllədən fərqli digər qaydalar müəyyən olunduqda, beynəlxalq müqavilənin qaydaları tətbiq edilməsi» də cinayət prosesinin beynəlxalq hüququn ümumtanınmış standartları səviyyəsinə qaldırılmasına xidmət edir. Lakin burada qeyd edilməsi zəruri olan bir problem də vardır. Məsələ ondadır ki, CPM birbaşa tətbiqi mümkün olan beynəlxalq müqavilə normaları üçün əsas nəzərdə tutmamışdır. Buna baxmayaraq cinayət prosesində zərər çəkmiş və ya təqsirləndirilən şəxs AR Konstitusiyasının 71-ci maddəsindən, o cümlədən 71.II («İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz»), 71.I («Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir») maddələrindən istifadə edərək müvafiq beynəlxalq normaların tətbiqini tələb edə bilərlər. Belə tələb üçün əsas kimi yenə də AR Konstitusiyasının 12-ci maddəsi çıxış edir. Həmin maddənin I hissəsində «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi» kimi, II hissədə isə «Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir» formasında təsbit edilmişdir. Qeyd etdiyimiz konstitusion müddəalar cinayət-prosessual tənzimetmə mexanizmində də özünün ifadəsini tapmışdır.

Beynəlxalq müqavilə cinayət-prosessual qanunvericiliyinin ilkin mənbələri kateqoriyasına aid edildiyi üçün, həmçinin beynəlxalq müqavilə normaları ilə müəyyən edilən huquq və azadlıqlar cinayət-prosessual normalarını gözləyən, icra və istifadə edən iştirakçıların, şəxslərin cinayət-prosessual statusunun ayrılmaz hissəsini təşkil etdiyindən həmin subyektlər məhkəmədən, prokurordan və digər hüquqtətbiqedən şəxslərdən beynəlxalq müqaviləni birbaşa tətbiq etməyi tələb etmək hüququna malikdirlər. O.A.Zaytsev bu məqamda haqlı olaraq qeyd edir ki, cinayət mühakimə icraatına cəlb edilmiş zərər çəkmiş, şahid və ya digər şəxs dövlətdaxili qanunvericiliklə nəzərdə tutulmayan və dövlətin ratifikasiya etdiyi, imzaladığı beynəlxalq norma ilə nəzərdə tutulan «insan huquqlarından» birbaşa istifadə etmək və onun müdafiəsində olmaq hüququna malikdirlər (5, 224). Ədəbiyyatda qeyd edildiyi kimi, söhbət cinayət-prosessual hüququnun mənbələrindən getdikdə Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta (1966), İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına (1950) xüsusi diqqət yetirilməlidir. Əgər Paktın və ya Konvensiyanın bu və ya digər maddəsi milli qununvericilikdə əks etdirilməyibsə, o halda müvafiq müddəalar (əgər ona qeyd-şərt edilməyibsə) birbaşa tətbiq edilməlidir (13, 267). Məcburi cinayət-prosessual göstərişləri nəzərdə tutan və «tərəfdar çıxılmış» beynəlxalq müqavilə normaları dövlətdaxili qanunvericiliklə bərabər tətbiq edilməklə yanaşı, həm də onları əvəzləyə bilər. Məhkəmə qərar qəbul edərkən istənilən halda, kolliziya problemini istisna etmək məqsədilə CPM-in beynəlxalq normaya uyğun olmasını müəyyənləşdirməlidir (10, 102).

Beynəlxalq hüquq norması ilə daxili qanunvericiliyin kolliziya probleminin öncədən həll edilməsi qəbul edilmiş qərarın əsaslılıq elementini gücləndirir. İstər cinayət-prosessual qanunvericiliklə beynəlxalq müqavilə normasının kolliziyası, istərsə də belə vəziyyət yaranmayan halda beynəlxalq müqavilə normasının birbaşa tətbiqi ümumi qaydaya çevrilməlidir. Kontinental Avropa ölkələrinin cinayət-prosessual hüququnun mənbələrini tədqiq edərkən belə qənaətə gəlmək olar ki, məhkəmə və digər orqanlar üçün insan hüquqlarına həsr edilən beynəlxalq sənədlərin birbaşa tətbiqi öhdəliyi nəzərdə tutulmuşdur (4, 11). Bu halda elə bir normativ qayda yaradılır ki, hüququn hər iki sistemi və dövlətlərin davranışı ilə normaların realizəsi arasında uyğunsuzluq istisna edilir (6, 25).

Beynəlxalq müqavilə normasının birbaşa tətbiq olunma xüsusiyyəti və CPM-in onu mənbə kimi tanıması (m. 2.1.4) cinayət-prosessual qanunvericilikdəki boşluqların hüquqtətbiqetmə prosesində də aradan qaldırılmasına imkan verir.

Beləliklə, birbaşa tətbiqi mümkün olmayan beynəlxalq müqavilə normaları əgər cinayət-prosessual qanunvericiliyinin təkmilləşdirilməsinə xidmət edirsə və qanunvericilik orqanı öhdəliklədirilirsə, birbaşa tətbiqi mümkün olan beynəlxalq müqavilələr isə hüquq müəyyən edən aktlar kimi məhkəmə və digər huquqtətbiq edən qurumları öhdəliklədirir. Birinci halda beynəlxalq müqavilələr cinayət-prosessual qanunvericiliyinin formal, ikinci halda isə maddi mənbəsi kimi qəbul edilə bilər. Qeyd edilənlərdən belə nəticə yaranır ki, AR CPM-in 2.1.4 maddəsi AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələri cinayət-prosessual qanunvericiliyinin formal mənbəsi kimi ifadə edib.

Bir sıra məsələlərin həllində beynəlxalq müqavilə normaları cinayət-prosessual qanunvericiliyinin digər mənbələrinə münasibətdə prioritet xususiyyət kəsb edir. Məsələn, inteqrasiya prosesinin təsiri altında sözün geniş mənasında cinayət işləri üzrə hüquqi yardımı tənzim edən beynəlxalq sazişlərin sistemi genişlənməkdədir. Cinayət işləri üzrə icraatın tənzimlənməsi zamanı beynəlxalq müqavilələrdən istifadə zərurəti bir sıra institutların beynəlxalq və cinayət-prosessual hüququnun kəsişmə nöqtəsində yerləşməsi ilə bağlıdır. Cinayət işləri üzrə hüquqi yardım intsitutu beynəlxalq müqavilələr olmadan tənzimlənə bilməz (7, 116-117). Ümumiyyətlə, cinayətkarlıqla mübarizədə dövlətlərarası münasibətləri tənzimləyən beynəlxalq müqavilələri də fəaliyyət sferasına, iştirakçıların dairəsinə, cinayətlərə görə məsuliyyəti nəzərdə tutan və onlarla mübarizədə hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyət qaydalarının tətbiqinə görə fərqləndirmək olar (9, 18-19). AR CPM-də də (LVII fəsil, m. 488-505) cinayət–mühakimə icraatında səlahiyyətli şəxslərin, orqanların hüquqi yardımın göstərilməsi qaydasında prosessual və digər hərəkətləri tənzimlənir. AR CPM-in 488.2 maddəsində qeyd edilir ki, AR-in ərazisində hüquqi yardımın göstərilməsi qaydasında prosessual və digər hərəkətlər bu Məcəllə, digər qanunlar və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında aparılır. Belə halda AR qanunvericiliyinin müddəaları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına zidd olduqda beynəlxalq müqavilələrin müddəaları tətbiq edilir.

Hüquqi yardımın beynəlxalq müqavilə qaydasında tənzimlənməsi digər qanunvericilik aktlarında da, o cümlədən Məhkəmələr və hakimlər haqqında, Ekstradisiya haqqında və s. qanunlarda da öz ifadəsini tapıb. Müvafiq qanunvericilik aktları hüquqi yardım haqqında beynəlxalq sazişlərin (məsələn, Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Avropa Konvensiyası (1959), Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (1973), İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan davranış və cəzaya qarşı BMT Konvensiyası (1984), Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında MDB Sazişi (1993) və s. tətbiqinə əsas verir. Müstəsna olaraq beynəlxalq müqavilə qaydasında tənzimlənən məsələnin müəyyən bir kateqoriyasını da diplomatik immunitet hüququna malik olan şəxslərin cinayət-prosessual statusu təşkil edir. AR CPM-in LI fəsli və d. qanunvericilik aktları bu məsələnin həllində AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə yanaşı, beynəlxalq hüququn hamılıqla tanınan prinsip və normalarına istinad edir. AR cinayət-prosessual qanunvericiliyi AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin cinayət-prosessual qanunvericiliyinin tətbiqini də mümkün sayır. Lakin bir şərtlə ki, həmin xarici cinayət-prosessual qanunvericilik AR-in cinayət-prosessual qanunvericiliyinin ümumi qaydasına ziddiyyət təşikl etməsin (AR CPM, m. 3.4). Qeyd edilən norma xarici hüququn tətbiqini o halda mümkün edir ki, birinci növbədə beynəlxalq müqavilə həmin hüququ sanksiyalaşdırsın, ikinci növbədə isə, həmin hüquq daha yüksək tən-

zimetmə standartı nəzərdə tutsun. Yalnız bu halda AR cinayət-prosessual qanunvericilik sistemi xarici hüququ da özünün sisteminə daxil edə bilər.

Beynəlxalq müqavilə normalarının cinayət-prosessual qanunvericiliyi üçün əhəmiyyətini aşağıdakı kimi qiymətləndirmək olar: dövlətdaxili sahəvi qanunvericiliyin təkmilləşdirilməsi; AR Konstitusiyasının 71. VI maddəsinə əsasən beynəlxalq müqavilənin özündə nəzərdə tutulduğu halda cinayət-prosessual münasibətlərini birbaşa tənzimləməsi; cinayət-prosessual münasibətlərini tənzim edən formal mənbə qismində çıxış etməsi.

Ümumiyyətlə, beynəlxalq hüquq normalarının dövlətdaxili hüquq sistemində yerinə münasibətdə ümumi və ya birmənalı yanaşma tərzi qəbul edilməlidir. Belə bir yanaşma tərzini inteqrasiya prosesi tələb edir.

Bu gün «beynəlxalq huquqla milli qanunvericiliyin qarşılıqlı təsiri dünya birliyinin hüquqi inkişafının ümumi qanunauyğunluğuna çevrilmişdir» (11, 64). AR CPM-ə beynəlxalq müqavilə normalarının mənbə kimi daxil edilməsinə də müəyyən faktorlar təsir göstərmişdir: insan hüquqları sferasında beynəlxalq müqavilə normaları ilə dövlətdaxili, o cümlədən cinayət-prosessual qanunvericiliyinin eyni məqsədə malik olması; insan hüquqları sahəsində beynəlxalq və dövlətdaxili hüququn uzlaşdırılması; həm Konstitusiya (m. 151), həm də sahəvi cinayət-prosessual qanunvericilik aktlarında (AR CPM, m. 2.3) beynəlxalq müqavilə normalarının prioritetinin tanınması; insan hüquqlarının Konstitusiya qaydasında ən yüksək dəyər kimi bəyan edilməsi (AR Konstitusiyası, m. 12.I); Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqlarının beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsi (AR Konstitusiyası, m. 12.II); cinayət-prosessual qanunvericiliyi sferasında qanunverici tərəfindən insan hüquqlarının vahid standartlarının və həmin standartların təminatının dövlətdaxili və beynəlxalq prosedurlarının müəyyən edilməsi və s.

Qeyd edilən faktorlar isə tədricən beynəlxalq müqavilə normalarının cinayət-prosessual tənzimetmə mexanizmində funksiyasını daha da genişləndirəcək və inkişaf etdirəcəkdir.

## ƏDƏBİYYAT


1. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Bakı: BDU, 2007, 488 s.
2. Hüseynov L.H. Beynəlxalq hüquq. Bakı: ABU, 2009, 240 s.
3. Hüseynov L.H. İnsan hüquqları sahəsində beynəlxalq müqavilələrin Azərbaycan Respublikasında implementasiyası məsələləri / İnsan hüquqları, Bülleten №1. Bakı: 1998, s. 35.
4. Гуценко К.Ф., Головко Л.В., Филимонов Б.А. Уголовный процесс западных государств / Под ред. Гуценко К.Ф. М.: Юристъ, 2001, 586 с.
5. Зайцев О.А. Государственная защита участников уголовного процесса. М.: Экзамен, 2002, 512 с.
6. Курдюков Г.И. Реализация норм международного права в сфере внутригосударственной компетенции. Международное и внутригосударственное право: проблемы сравнительного правоведения / Межвузовский сборник научных трудов. Свердловск: СГУ, 1984, с. 24-29.
7. Ларин А.М. Уголовный процесс – структура права и структура законодательства. М.: Наука, 1985, 380 с.
8. Лукашук И.И. Международно-правовое регулирование международных отношений (системный подход). М.: Международные отношения, 1975, 176 с.
9. Натура А.И., Пихов А.Х-А. Международное сотрудничество в сфере уголовного судопроизводства: организационно-правовые основы, процессуальный порядок и формы взаимодействия. М.: Юрлитинформ, 2007, 400 с.
10. Самович Ю.В. О соотношении российского законодательства в области защиты прав человека с основными международными стандартами // МЖМП, 2000, №3, с. 98-105.
11. Тихомиров Ю.А. Проблемы сравнительного законоведения // Советское государство

и право, 1993, №8, с. 60-66.
12. Трунцевский Ю.В., Гриб В.В. О формировании научной концепции имплемантации норм европейского права в России // Международное публичное и частное право. 2001, №4, с. 2-8.
13. Уголовный процесс. Под ред. В.П. Божьева. 3-е изд., испр. и доп. М.: Спарк, 2002, 704 с.

## МЕЖДУНАРОДНЫЕ ДОГОВОРНЫЕ НОРМЫ И УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОЕ ЗАКОНОДАТЕЛЬСТВО

**А.Дж.СЕИДОВ**

**РЕЗЮМЕ**

В статье, проблемы взаимоотношения международных договорных норм и уголовно-процессуального законодательства широко анализируются на основе существующих различных мнений в юридической литературе и внутригосударственного законодательства. В результате проводившихся исследований важность международных договорных норм для уголовно-процессуального законодательства оценивается таким образом: совершенствование внутригосударственного отраслевого законодательства, в соответствии со статьей 71.VI Конституции АР непосредственное регулирование уголовно-процессуальных отношений, если это предусматривается в самом международном договоре и др.

## THE INTERNATIONAL CONTRACTUAL NORMS AND THE CRIMINALLY REMEDIAL LEGISLATION

**A.J.SEYIDOV**

**SUMMARY**

In the article the problem of mutual relations of the international contractual norms and the criminally-remedial legislation are widely analyzed on the basis of existing various opinions in the legal literature and the internal legislation. As a result of carried researches importance of the international contractual norms for the criminally-remedial legislation is estimated as perfection of the internal branch legislation; direct regulation of criminally-remedial relations in accordance with article 71.VI of the Constitution of AR, if it is provided in the international contract.